# SİNİFDƏNXARİC TƏDBİRLƏRDƏ YENİYETMƏLƏRİN HUMANİZM TƏRBİYƏSİNİN TƏŞKİLİ İMKANLARI

**Təhminə Nəbiyeva,**
*Gəncə Dövlət Universitetnin müəllimi*
E-mail: tahmina_nabiyeva@ mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* Ş.T. Tağıyev,
*ped.ü.fəls.dok.* G.R. Məmmədova

***Açar sözlər:*** *humanizm tərbiyəsi, sinifdənxaric tədbir, insanpərvərlik, şəxsiyyətin formalaşması, insani dəyərlər*

***Ключевые слова:*** *гуманное воспитание, внеклассное мероприятие, гуманизм, формирование личности, человечные ценности*

***Key words:*** *humane education, extracurricular activities, humanism, the formation of the person, humane values*

Sinifdənxaric tədbirlər məktəblə həyat arasında qovşaq rolunu oynayır. Sinifdənxaric tədbirlər çox rəngarəng olub, müxtəlif formalarda (fərdi, qrup, kütləvi klub və cəmiyyət) təşkil edilir. Müharibə veteranları ilə, əməkçi insanlarla, milli qəhrəmanlarla, elm və incəsənət xadimləri ilə görüşlər, Şəhidlər Xiyabanına, Xocalı abidəsinə ziyarətlər, kitabların müzakirəsi şagirdlərin humanizm tərbiyəsində müstəsna əhəmiyyət kəsb edir.

Təlim prosesində formalaşan humanist keyfiyyətlər sinifdənxaric tədbirlər prosesində bir qədər də möhkəmləndirilir və təkmilləşdirilir. Sinifdənxaric tədbirlərdə şagirdlər ictimai faydalı əməkdə iştirak edir, toplantılarda görünür, birlikdə oynayır, ekskursiyalara gedir, müxtəlif idman növləri üzrə yarışırlar. Müxtəlif sinifdənxaric tədbirlər prosesində şagirdlərin münasibətlərində humanist keyfiyyətlər formalaşır. Həmin humanist münasibətlər onların şəxsiyyətinin sonrakı inkişafını müəyyənləşdirir.

Şagirdin kollektivdə hansı humanist keyfiyyətlərə malik olacağını, birlikdə oynayarkən onların qarşılıqlı münasibətlərini tənzimləyən müəllim hər bir şagirdin vəzifəsini qabaqcadan təyin etməlidir. Kollektiv iş zamanı yaranan münasibətlər çox vaxt böyüklər tərəfindən nizamlanır. Müəllim əməyin keyfiyyətinə, oyun prosesində, toplanışların, ekskursiyaların keçirilməsi ilə əlaqədar şagirdlərin qarşısına tələblər qoymalıdır. Şagirdlər bu tədbirləri bilməli və başa düşməlidirlər.

Əməliyyatların birindən digərinə keçərkən şagirdlər müxtəlif qruplara qoşulurlar, yaşıdları ilə yoldaşlıq edir, özlərini müxtəlif vəziyyətlərdə sınaqdan keçirirlər. Bütün ictimai faydalı işlərin təşkilində başlanğıc prinsip belədir: “bir nəfər də kənarda qalmamalı, bir nəfər də biganə olmamalıdır”. Bütün sinif fərdi, qrup və kollektiv tapşırıqlar alır.

Humanist istiqamətə malik müxtəlif ictimai faydalı işlərdə iştirakın tərbiyəvi səmərəsi onda ifadə olunur ki, məktəblilərdə yoldaşlarına humanist münasibət yaranır, onlara və ətrafdakı adamlara qayğıkeş, ədalətli, həssas olmaq, qayğıkeşliyi sözdə yox, işdə göstərmək tələbatı formalaşır.

Yuxarı yaşlı məktəblilərlə sinifdənxaric işlər fərdi, qrup, birləşmiş iş və kütləvi formalarda təşkil edilir. Bu barədə mövcud pedaqoji ədəbiyyatda ayrı-ayrı pedaqoq alimlər (N.M. Kazımov, Ə.Ş. Həşimov, A.N. Abbasov, R.İ. Əliyev, Y.R. Talıbov, X.Q. Fətəliyev, A.M. Həsənov, F.B. Sadıqov, S.M. Quliyev və b.) ətraflı bəhs etmişlər.

Şagirdlərin humanizm tərbiyəsi məqsədi ilə fərdi işin sinifdənxaric oxu növündən daha geniş istifadə edilir. Məktəblilər təkcə proqramda nəzərdə tutulanlarla kifayətlənmir, özləri də əlavə kitablar oxuyurlar, lakin bunlar bir sıra hallarda təsadüfən seçilmiş bədii əsərlər olur. Nəticədə şagirdlərin yaşına biliyinə müvafiq olan şagirdlərin humanizm tərbiyəsinə xidmət edən yaxşı əsərlər bəzən kənarda qalır. Deməli, şagird mütaliəsinin düzgün istiqamətləndirilməsinə xüsusi diqqət yetirilməlidir.

Bədii ədəbiyyat, şagird şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Müşahidələr və fənn müəllimlərinin qabaqcıl təcrübəsi göstə-

rir ki, şagirdlərin humanizm tərbiyəsində sinifdənxaric oxu üçün lazım olan ədəbiyyatın düzgün seçilməsinin mühüm əhəmiyyəti vardır. Şagirdlər oxuduqları kitabların qəhrəmanlarına bənzəməyə çalışır, onlar kimi qayğıkeş və xeyirxah, doğrucul olmağa çalışırlar.

Sinifdənxaric işlərdə şagirdlərin çoxunu ümumi maraqlar birləşdirir. Buna görə də məktəbdə müxtəlif dərnəklər və qrup halında digər sinifdənxaric tədbirlər təşkil edilir.

Məktəblərdə qrup halında aparılan sinifdənxaric işin ən çox yayılmış formalarından biri dərnək işləridir. Onlar şagirdlərin proqram materialı vasitəsilə əldə etdikləri biliyi dərinləşdirir, yaradıcılıq qabiliyyətini artırır, kollektivdə işləməklə bir-birinə yoldaşlıq, dostluq köməyi kimi humanist keyfiyyətləri də formalaşdırır. Gəncə şəhərindəki 5 saylı orta məktəbdə təşkil olunmuş "Gənc ekoloqlar" dərnəyinin (rəhbəri Səmayə Kərimova) üzvləri burada əsl yaradıcı, axtarıcı və tədqiqatçı kimi çıxış edirlər.

Yaxınlıqda yerləşən "Gəncə xalça kombinatı"na məxsus iki pambıq və yun sexindən gələn çirkli suyun təmizlənmədən axıdılmasına qarşı çıxış, kombinatın rəhbərliyi ilə, şəhər sanitar-epidemioloji stansiyasının işçiləri ilə ekoloji mövzuda söhbətlər aparırlar. Şübhəsiz müəyyən qədər bu söhbətlərin nəticəsidir ki, hazırda suyun təmizlənməsi üçün xüsusi çala qazılır və orada təbii və kimyəvi üsulla zərərsizləşdirilir. Bundan başqa şagirdlər Gəncə şəhər Heydər Əliyev mərkəzində, Heydər Əliyev və Nizami prospektlərində, Nizami Gəncəvi xiyabanında və digər şəhərətrafı parklarda xeyli çinar və şam ağacları əkilmiş və onların böyüməsi üçün xeyli işlər görmüşlər. İşləməyə getməzdən əvvəl müəllim şagirdlərə bu əməyin cəmiyyətə faydasından danışır. Yalnız bu zaman gənc ekoloqlar gördükləri işə ürəklə, həvəslə yanaşır, belə ki, onun ictimai əhəmiyyətini dərk edirlər. Gəncə şəhəri Nizami rayonundakı 16 saylı məktəbin əmək fəaliyyətinə cəlb edilən X$^a$ sinfinin şagirdləri uşaq bağçalarında fəallıq göstərmişlər.

Bağçada kiçik yaşlı uşaqlara qayğı göstərməklə yanaşı, şagirdlərin bir-birinə münasibətində də xeyli dəyişiklik yaranmışdır. Əgər digər sinfin şagirdləri əmək fəaliyyətindən sonra onlara təklif edilmiş "Mənim dostum" mövzusunda inşa yazarkən sadəcə dostlarının ad və soyadını yazmaqla kifayətlənirlərsə, söhbət aparılmış sinfin şagirdləri özlərinin dostluğa olan münasibətlərini, dostlarını nəyə görə qiymətləndirdiklərini, dostluq etmək bacarıqlarını əks etdirir. Yoldaşlığa, dostluğa bunlara dair atalar sözlərindən nümunələr göstərirlər: "Dost dosta tən gərək, tən olmasa gen gərək", "Taylı tayını tapmasa, günü ax vayla keçər", "Yaxşı yoldaş adamı bay edər, pis yoldaş-zay", "Dostunu göstər, sənin kim olduğunu deyim", "Yaxşı dost dar gündə sınanar", "Hər şeyin təzəsi, dostun köhnəsi".

X-XI siniflərdə ən çox yayılmış sinifdənxaric işlərin birləşmiş forması böyük yaşlı məktəblilərin müxtəlif studiyalarda gördükləri işlərdir. Gəncə şəhər

27 nömrəli məktəbdə fəaliyyət göstərən təsviri sənət studiyasında bu sahədə toplanan iş təcrübəsi daha çox maraq doğurur. Dərslərdən fərqli olaraq, studiyalarda məşğələlər könüllü və daha yaradıcı xarakter daşıyır. Əgər dərs prosesində şagirdlər eyni problem üzərində işləyirlərsə, studiyadakı məşğələlərdə sərbəst yaradıcılığa geniş şərait yaradılır. Burada şagirdlər müəllimin rəhbərliyi ilə işləsələr də tam sərbəst olur, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək imkanı qazanırlar.

**Problemin aktuallığı.** Sinifdənxaric tədbirlər zamanı yeniyetmələrin humanizm tərbiyəsinin təşkili imkanlarını müəyyənləşdirmək yeni təfəkkür şəraitində önəmli məsələdir.

**Problemin yeniliyi.** Sinifdənxaric tədbirlərdə yeniyetmələrin humanizm tərbiyəsinin təşkili imkanları araşdırılır.

**Problemin praktik əhəmiyyəti.** Sinifdənxaric tədbirlər zamanı yeniyetmələrin humanizm tərbiyəsinin təşkili sahəsində müəllimlərə öz köməyini göstərəcəkdir.

## ƏDƏBİYYAT


1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2016.
2. Əliyev R.İ. Mentalitet. Bakı: Mütərcim, 2014.
3. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. Bakı: Maarif, 1995.

4. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı: Araz, 2000.
5. Əliyev R.İ. Məktəbə psixoloji xidmətin aktual məsələləri. Bakı: Nurlan, 2004.

**Т.А. Набиева**

**ОРГАНИЗАЦИОННЫЕ ВОЗМОЖНОСТИ ГУМАННОГО ВОСПИТАНИЯ У ПОДРОСТКОВ НА ВНЕКЛАССНЫХ МЕРОПРИЯТИЯХ**

***РЕЗЮМЕ***

В статье выявлены новые значения понятия гуманизма воспитания, показаны возможности художественной литературы, экскурсий и поездок, кружков в воспитании гуманизма и приведены примеры из школьной практики.

Статья, является экспериментальным научным делом, а также посвящена обогащению педагогической науки.

**T.A. Nabıyeva**

**ORGANIZATIONAL CAPACITY HUMANE EDUCATION AT TEENAGERS ON EXTRA-CURRICULAR ACTIVITIES**

***SUMMARY***

Article reveals the concept of the new values of humanism education shows the possibility of fiction, excursions and trips, clubs in the education of humanity and are examples of school practice.

Paper is an experimental scientific matter and is dedicated to the enrichment of pedagogical science.

**Redaksiyaya daxil olub:** 26.02.2018